https://doi.org/10.59849/3006-1342.2024.1.151
UOT 37

*V.C.Hüseynova*
*AMEA Gəncə Bölməsi*
*Gəncə ş., H.Əliyev pr., 419*
*E-mail: vusala.huseyn.76@bk.ru*

# ÖZBƏKİSTANDA YAŞAYIB-YARATMIŞ ORTA ƏSR QARABAĞ ŞAİRİ YUSİF QARABAĞİ

*Məqalədə fəlsəfə, məntiq və poeziya sahəsində tanınan orta əsr qarabağlı alim və şair Yusif Məhəmmədcan oğlu Qarabaği haqqında geniş məlumat verilir. Vətənində yaranmış ictimai-siyasi vəziyyətlə əlaqədar müəllimi Həbibullah Mirzəcan Şirazi ilə birgə Orta Asiya şəhərlərinə mühacirət etməyə məcbur olur. Özbəkistanda əvvəlcə Səmərqənddə, sonra isə Buxarada yaşamış, dəyərli əsərlər yazmışdır.*

*Məqalədə onun müasiri Hacı Seyid Şərif Rəhimin fikirləri, Azərbaycan alimləri M.Tərbiyyət, A.Əminzadə, rus şərqşünası A.Ə.Semenov kimi alimlərin əsərlərində Yusif Qarabağinin elmi və yaradıcılıq fəaliyyəti haqqında məlumatlar təhlil edilir.*

*Açar sözlər:* orta əsr alimləri, Yusif Qarabaği, “Cənnətin yeddi bağı kitabı”, Orta Asiya, Buxara şəhəri

Fəlsəfə, məntiq, fiqh elmləri və poeziya sahəsində məşhur olan Yusif Məhəmmədcan oğlu Qarabaği 1570-ci ildə Bərdə şəhərinin yaxınlığında, Tərtər çayının sağ sahilində yerləşən Mehribanlı kəndində anadan olmuşdur. O, ilkin çağlarda şeirlə maraqlanmış, şeirlərini Yusif Mehribani təxəllüsü ilə yazmışdır, sonralar vətənindən çox uzaqlara düşmüşdür və Yusif Qarabaği kimi Orta Asiyada məşhurlaşmışdır.

Yusif Qarabağinin atası Məhəmmədcan dövrünün tanınmış ilahiyyatçısı idi. O, Yusifin təhsili ilə özü məşğul olduqdan sonra oğlunu İrana aparmış, orada dövrünün böyük alimi olan Həbibulla Mirzəcan Şirazinin məktəbinə qoymuşdu. Lakin alim İranda çox qala bilməyib müəllimi ilə birgə Orta Asiyanın şəhərlərinə mühacirət etmişdir. Görkəmli ədəbiyyatşünas Həmid Araslı “XVII–XVIII əsr Azərbaycan ədəbiyyat tarixi” kitabında o dövrü belə şərh edir: “Şah Abbasın Azərbaycanda hakimiyyəti dövründə, ölkəyə divan tutduğu illərdə alim, şair və sənət adamlarının vəziyyəti çox ağırlaşır. Böyük sürgün illərində belə görkəmli şəxsiyyətlərdən çoxu İsfahana köçürülür. Şah Abbasın apardığı siyasətdən narazı qalan şair və alimlərin müəyyən hissəsi öldürülür, imkan tapanlar isə Hindistana, Orta Asiyaya qaçmağa məcbur olurlar. Bunların arasında bir sıra dini-fəlsəfi əsərlər müəllifi Yusif Qarabaği kimi alimlər ölkədən baş götürüb qaçmış, Şah Abbasın hökmü çatmayan ellərdə yazıb-yaratmağa məcbur olmuşlar” [1, s. 92].

Yusif Qarabaği əvvəlcə Şərqin mühüm elm mərkəzlərindən biri olan Səmərqənddə yaşadıqdan sonra Buxara şəhərinə köçür. Bu şəhərdə orijinal əsərlər və təsvirlər yazır. Həmin dövrdə Buxara əmiri İmamqulu Bahadur xan idi. Bahadur xan yüksək şeir təbinə malik şəxsiyyət olduğundan Yusif Qarabağini də hörmətlə qarşılamış, onunla dostluq etmişdir.Yusif Qarabaği şeir deməkdə yüksək təbə və istedada malik idi. Onun qəsidələri bədii sənətkarlıqla dolu olmuş və əvvəldən axıra kimi nadir və məzmunlu qafiyələrlə bitmişdi. Alimin əsərlər külliyatından Özbəkistan EA Şərqşünaslıq İnstitutunun Əlyazmalar Fondunda əsas aşağıdakılar qorunub saxlanılır: ərəb dilində yazılmış “Xanəngah haşiyəsi”əsəri; Buxara şəhərində yazılmış “Anlaşılmayan məsələləri birtərəf haqqında tamamlayıcı təsvirləri” əsəri; ərəb dilində yazılmış “Vaqifin (zərurətin) sübutu haqqında” traktatın şərhi əsəri; “Nur

saraylarının şərhi olan nur mənzəhələrinə haşiyə"; ərəb dilində yazılmış "Tənzib" kitabının şərhinə haşiyə əsəri; "Varlıq fəlsəfəsi" kitabına haşiyə əsəri. Göstərilən əsərlərdən əlavə alimin 10 mükəmməl əsəri də vardır ki, onlar da Özbəkistan EA-nın Əlyazmalar Fondunda saxlanılır. Yusif Qarabaği 1645-ci ildə vəfat etmişdir. Qarabağinin qəbri Buxara şəhərinin cənubundakı Sefid Muy adlı kənddə Baba Şoqi Pərəluz darvazası yaxınlığındadır [2, s. 117-118].

Yusif Qarabağinin öz dövründəki elmi nüfuz və şöhrəti haqqında onun müasiri Xacə Seyid Şərif Raqimin «Tarixi-Raqimi» adlı əsərində verdiyi məlumatlar dolğun təsəvvür yaradır: «Alimlərin sultanı, fazillərin sübutu olan Mövlana Yusif Qarabaği mənalar Misrində taxta əyləşmiş, bəlkə də üzüyünün qaşı altına tam fəzilət mülkünü almış, bilik taxt-tacında əzizlənib elm səmasında on dörd gecəlik Ay kimi şəfəqlənmişdi. Bütün elmlər üzrə o, müasirlərindən bir istisna təşkil etmişdir. O, elmlər üzrə ixtisaslaşmış və mahir olmuşdur. Xüsusilə fəlsəfə və nücum (astrologiya) sahəsində zəmanəsinin misilsiz alimi və əsrinin yeganəsi idi». Daha sonra Raqim Yusif Qarabağinin həm də istedadlı bir şair kimi təqdim edərək yazır: «Yusif Qarabaği şeir deməkdə yüksək ilhama və gözəl istedada malik idi, onun qəsidələri mətlədən məqtəyə qədər nadir və məzmunlu qafiyələrlə bitmişdir» [3, s. 232].

Yusif Qarabağinin şəxsiyyəti məşhur Azərbaycan alimi Məhəmmədəli Tərbiyətin diqqətindən kənarda qalmamış və o, «Danişməndani-Azərbaycan» adlı ensiklopedik əsərində əldə etdiyi məlumatları ümumiləşdirərək yazmışdır: «Kosa adı ilə məşhur olan Yusif Məhəmmədcan oğlu Yusif Qarabaği öz dövrünün alimlərindən olmuş və hicri-qəməri ilə 1054-cü (1644-cü) ildə vəfat etmişdir. O, Mövlana Cəlaləddin Dəvvaninin «Şərhi-əqayidi-əzüdi» əsərinə haşiyə və əlavələr yazmışdır ki, «Haşiyəyi-Xanəgahi» adı ilə məşhurdur. Yusif Qarabaği bu əsəri Səmərqəndin Hüseyniyyə xanəgahında yazmış və Əbu Hamid Xəlilullaha təqdim etmişdir (hicri-qəməri 999-cu il səfər ayının 2-də / 1590, 30 noyabr). Ağa Hüseyn Xalxali bu əlavələri tənqid etmişdir. Mövlana Yusif hicri-qəməri 1033-cü (1623-cü) ildə Buxara şəhərində ona cavab yazmışdır ki, bu da «Tətimmətul həvaşi fi izalətil ğəvaşi» («Qaranlıq məsələləri aradan qaldırmaq məqsədilə haşiyələrə əlavə») adı ilə məşhurdur». Daha sonra M. Tərbiyət onun bir beyt şeirini misal kimi vermişdir [4, s. 180].

Dövründəki böyük şöhrətinə və ölümündən sonra əsərlərinin geniş yayılmasına baxmayaraq, XX əsrin əvvəllərində Yusif Qarabaği ilk geniş tədqiqatın müəllifi, tanınmış şərqşünas A.A.Semyonov ondan "XVII əsrin unudulmuş filosofu" kimi bəhs etmişdir. Alim əldə etdiyi mənbələrə əsaslanaraq Yusif Qrabağini elmi bioqrafiyasını bərpa etməyə çalışmış və onun "Risalə əl-xəlvətiyyə" əsərini geniş təhlil etmişdir. A.A.Semyonov öz elmi əsərində qeyd edir ki, Y.Qarabaği geniş əhatəli, dərin fəlsəfi biliyə və ətraflı elmi mütaliəyə malik filosof olmuşdur. Onun yaradıcılığı Yaxın və Orta Şərq və xüsusilə Azərbaycan, İran və Orta Asiya xalqlarının həyatı, məişət tərzi və mənəviyyatı ilə sıx surətdə bağlı olduğu üçün həmin xalqların mədəni ənənələri əsasında formalaşmışdır. Onun dünyagörüşü əsas etibarilə sufipanteist xarakter daşımışdır. Belə bir dünya baxışı, şübhəsiz orta əsrin müsəlman Şərqində hakim islam ideologiyası ilə uzlaşmayan və özündə mütərəqqi meylləri əks etdirən təfəkkür tərzi idi. Yusif Qarabağinin varlıq haqqında təlimi onun panteist (kainatı bütövlükdə tanrı kimi qəbul edən fəlsəfi düşüncə) olduğuna dəlalət edir. Yusif Qarabaği hər şeydən əvvəl ***varlığı*** fəlsəfənin öyrəndiyi obyekt hesab edərək, onun tam vəhdət halında mövcud olduğunu söyləyir. Mütəfəkkirin əqidəsinə görə təbiət və onun bir hissəsi olan insan arasında olan münasibətə oxşayır. Vahid və çoxluq, hissəcik və bütöv mövcudat vahid tam bir varlığı təşkil edir. Yusif Qarabağinin təliminə görə varlıq vahid olan tam bir bütövün ifadəsidir. Ayrı-ayrı cisim və hadisələrin arasında olan müştərək cəhətlər həmin mövcud olanların eyniyyət və tam bərabərlik təşkil etməsinə bir sübutdur. Buradan isə o, belə bir nəticə çıxarır ki, hər şey hər bir şeydə mövcuddur. Yusif Qarabaği dönə-dönə dünyanın vəhdətliyi fikri ilə daha çox bağlı olduğu üçün ikilik aləmini deyil, vəhdətlik aləmini qəbul etməyi zehni kamillik sayırdı. Yusif

Qarabağinin panteist dünyagörüşündə varlığın vahid substansiyadan olması məsələsi elmi əsaslarla sübut edilməsə də, maddi aləm daimi hərəkətdə, dəyişiklikdə, inkişafda göstərilməsə də bütün mövcudatın - mədənlər, bitkilər, heyvanlar və insanlar arasında olan sədlər aradan qaldırılır və dünyanın vəhdətliyi məsələsi irəli sürülür. Yusif Qarabağinin hərəkət, məkan və zaman haqqındakı fikirləri metafizik çərçivədən kənara çıxa bilməmişdir. Yusif Qarabağinin idrak və məntiq sahəsində də dövrünə görə xidmətləri olmuşdur. Qarabaği məntiq elmini və nəzəriyyəsini təhlil və inkişaf etdirməkdə peripatetiklər kimi əsas etibarilə Qədim Yunan filosoflarının, xüsusilə Ərəstunun idrak və məntiq nəzəriyyəsinə istinad etmişdir. Onun idrak və məntiq sahəsindəki baxışları "Xanəgah haşiyələri", "Təhzibin şərhinə dair haşiyə" və qismən "Həft behişt" əsər və traktatlarında şərh edilmişdir. Yusif Qarabağinin dünyanın dərk edilməsində hissi idrakın rolunu müsbət qiymətləndirdiyi və xüsusi olaraq dönə-dönə qeyd etdiyi üçün o, dövrünün sensualist (duyumçuluq) filosofu kimi çıxış etmişdir. Filosof xarici və daxili hissləri biliyimizin ilk mənbələri və insanı ətraf mühitlə bağlayan amillər kimi səciyyələndirməyə səy göstərmişdir. Yusif Qarabağinin əqidəsinə görə əsl insan nəfsin ən yüksək qüvvəsidir. Filosof əqli bir çox hallarda insani nəfsi mücərrəd təfəkkürə və ümumi idraka aparan, fəhmi (intellekti) isə insani nəfsin bir qüvvəsi kimi bilikləri kəsb edən vasitə hesab etmişdir [5, s. 138, 251].

Yusif Qarabaği idrak təlimində bir sıra ərəb dilli filosofların, o cümlədən, Fərabi, İbn Sina, Bəhmənyar və başqalarının arxasınca gedərək bu fikirdə olmuşdur ki, əql anlayışların, kateqoriyaların və universalın əldə edilməsi üçün nəfsin orqanıdır. Göründüyü kimi Qarabağinin idrak nəzəriyyəsində sensualizm ilə rasionalizmin əlaqələndirilməsi müşahidə olunur. Filosofun fikirlərindən tamamilə aydın olur ki, hissi məlumatlar olmadan, ruhi, məntiqi, iradi fəaliyyət, məfrumların yaranması, əqli nəticələrin çıxarılması və s. mümkün deyildir. Yusif Qarabağinin mühüm əsərlərinin öyrənilməsi göstərir ki, o, öz yaradıcılığında sistemləşdirilmiş şəkildə olmasa da, ayrı-ayrılıqda etik və əxlaq məsələlərinə toxunmuşdur. Yusif Qarabağinin əxlaqa dair mühakimələri onun ümumfəlsəfi mühakimələri ilə bağlı idi. Qarabaği öz sələfləri kimi əsas etibarilə insanların bütün yaxşı əxlaqi keyfiyyətlərinə malik olmasını, səadət və xoşbəxtliyə çıxmasını, həyatdan zövq almasını və s. həqiqətin öyrənilməsində və dərk edilməsində görürdü. Məhz buna görə də onun etik baxışlarında azad fikirlilik və s. kimi mühüm xüsusiyyətlər öz əksini tapmışdı. Filosof insana hörmət bəsləməyi, mehriban münasibəti, rəhmdil olmağı, hətta o zaman ən müqəddəs, savab iş sayılan Kəbə ziyarəti kimi dini adətdən üstün tuturdu. O, "Həft behişt" əsərində yazmışdı: "İnsanların ürəyini ələ gətir ki, bu ən böyük ibadətdir. Bir ürəyi ələ gətirmək min dəfələrlə Kəbə ziyarətindən yaxşıdır". Mütəfəkkirin bu sözləri onun sələflərinin, xüsusən məşhur Şərq panteistləri Mənsur Həllacın və Mahmud Şəbüstərinin buna oxşar fikirləri ilə yaxından səsləşirdi. Yusif Qarabağidə nikbinliyə, həyatda sevincə və şadlığa qovuşmağa çağırış motivləri də vardır. Məsələn, "Ürək yumurtasının keşiyində duran bir quş ol, çünki ürək yumurtasından sevinc və şadlıq doğulur". Deyildiyi kimi Yusif Qarabaği öz etik görüşlərində insan əqlinə və zəkasına böyük qiymət vermiş, əqli insanların tərbiyəsi üçün əsas vasitələrdən biri hesab etmişdir. Filosof Şərqin böyük mütəfəkkiri Sədi Şirazinin "İnsanın böyüklüyünü göstərən yaş deyil əqildir" kəlamını təkrarlayaraq ağıllı və zəkalı insanları yüksək qiymətləndirmişdir. Məhz buna görə də Yusif Qarabaği biliyi və elmi insanların mənəvi zinəti adlandırmışdır. Yusif Qarabağinin etik baxışlarında diqqəti cəlb edən məsələlərdən biri də ədalətli olmaqdır. Mütəfəkkir bu barədə əsas etibarilə sufi-panteistlərin, o cümlədən, Mahmud Şəbüstərinin mövqeyində durmuşdu. Yusif Qarabağinin etik baxışlarında adamların öz mənliyini saxlaması və şərafətli yaşaması kimi gözəl əxlaqi sifətlər diqqətə layiq yer tutur. O, şərəfliyə qarşı duran mənfi əxlaqi keyfiyyətləri alçaqlıq və rəzalət adlandıraraq onları pisləyirdi. Mütəfəkkir həyatda vəfalı və sədaqətli olmağı da insanın ən yaxşı mənəvi xüsusiyyəti kimi qiymətləndirmişdi: "Hər kəsdən, hətta itdən belə vəfa görünərsə, xoşdur".

Mütəfəkkir belə bir ideyanı təqdim etməyə çalışırdı ki, insan gərək dostluqda sədaqətli, möhkəm və dönməz olsun ki, heç kəs və heç bir şey bu dostluğu sarsıda bilməsin [6].

Yusif Qarabağinin həyat və yaradıcılığının öyrənilməsi sahəsində ən mühüm xidmət, şübhəsiz, Azərbaycan tədqiqatçısı Ə.Ə.Əminzadəyə məxsusdur. O, əvvəlcə "Azərbaycan fəsəfəsi tarixinə dair oçerklər" adlı kollektiv əsər üçün Yusif Qarabaği haqqında məqalə yazmış, daha sonra özünün "Azərbaycan fəlsəfi və ictimai-siyasi fikir tarixindən" adlı monoqrafiyasında ona xüsusi fəsil həsr edərək, filosofun həyatı və fəlsəfi irsi, *ontoloji* (varlıq haqqında təlim), *qnoseoloji* (insan idrakının öyrənilməsi) və etnik görüşləri haqqında geniş bəhs açmışdır. O əsərində qeyd edir ki, Səfəvilərin hakimiyyəti dövründə bir çox alim və şairlər kütləvi surətdə ölkəni tərk edirdilər, başlıca səbəbi isə ölkədəki ideoloji sərait, dini dözümsüzlük atmosferi olmuşdur. Şiəliyi hakimiyyətin dayağına çevirmiş Səfəvi hökmdarlarının himayəsi sünnilər və eləcədə sufizm nümayəndələri ciddi təqiblərə məruz qalırdılar, məhz bu səbəbdən Yusif Qarabağinin əsərlərinin təhlili ona dəlalət verir ki, ustadı Şirazi ilə Orta Asiyaya getməyə məcbur olub. O, bir müddət Səmərqənddə yaşamış, tədrislə məşğul olmuş, "Böyük Axund" ("Axndi-kəlan") adı ilə şöhrət qazanmışdır. Elə həmin dövrdə o, məşhur sufi şeyxi Nəcməddin Kübranın (1145-1221) adı ilə bağlı "kübraviyyə" təriqətinə qoşulmuşdur. Daha sonra Buxaraya köçən Yusif Qarabaği burada məhsuldar elmi yaradıcılıqla məşğul olmuşdur. O, Buxara əmiri İmamqulu Bahadurxan (1611-1642) ilə yaxın olmuş, onun məclislərində iştirak etmişdir. Yusif Qarabağinin oğlu Xacə Yaqub atasının ölümünə maddeyi-tarix yazmışdır. Həmin maddeyi-tarixə ("Yaqubun gözündən Yusif getdi") əsasən hicri-qəməri 1054-cü ildə (1644-45) vəfat etmişdir və Buxara ətrafında dəfn olunmuşdur.

Ə.Əminzadə yalnız Özbəkistan Şərqşünaslıq İnstitutunun əlyazmalarına əsasən alimin 20-yə qədər əsərinin adını çəkir. Bu əsərlərin əksəriyyəti ərəbcədir. "Haft cinan" risaləsi Yusif Qarabağinin farsca yazdığı ən mühüm əsəridir. Təsadüfi deyil ki, Ə.Əminzadə alimin fəlsəfi görüşlərini bu risalə əsasında şərh etmişdir. Lakin o nədənsə, həm "Azərbaycan fəlsəfi tarixinə dair oçerklər"də, həm də monoqrafiyasında əsərin adını "Həft behişt" ("Yeddi behiş") kimi göstərilmişdir. Bu əsərin əlyazması Saltıkov-Şedrin adına kitabxananın kataloqunda risalənin adı "Kitabi-həft cinan" ("Yeddi cənnət bağı kitabı") kimi verilmişdir. Bu da tamamilə qanunauyğundur, cünki risalə hər biri "cinan" adlanan və öz növbəsində bir neçə "çəmənə" bölünən (buna görə risalə həm də "Çəməniyyə" adı ilə məşhurdur) yeddi fəsildən ibarətdir. "Behişt" sözü isə Yusif Qarabağlının öz əsərinin yazılma səbəbindən bəhs edərkən yazmışdır: "...Könlüm rəsmi maneələrə və gündəlik məşğuliyyətə baxmayaraq, bir risalə qələmə aldı ki, yeddi cənnət bağından (cinan ibarətdir və xütbəni (girişi) də əlavə etsən, səkkiz olar və beləliklə, ona səkkiz behişt demək mümkün olar...)" [7].

Qeyd etdiyimiz kimi, Daşkənd Dövlət Şərqşünaslıq Universitetinin kitabxanasında saxlanılan əlyazmalardan 20-si Yusif Qarabağlıya məxsusdur. Bu əsərlərin əksəriyyəti ərəb dilində, bəziləri türkcə yazılmışdır və tərcüməyə ehtiyacı var. Türk alimi Abdurahim Gözəl öz əlyazmalarında Süleymaniyyə kitabxanasında Yusif Qarabağinin yeddi əsərinin olduğunu qeyd edir. Yalnız Yusif Qarabağlının farsca yazdığı "Heft Cinan" ("Yeddi bağ") şərqşünas alim Məsiyağa Məhəmmədi tərəfindən Azərbaycan dilinə tərcümə edilərək nəşr edilib. Əsərlərindən biri Sankt-Peterburq kitabxanasında saxlanılır. Beləlikə orta əsr böyük Azərbaycan alimi Yusif Qarabaği Özbəkistanda yaşayıb-yaratsada, tam zamanıdır ki, qardaş türk dövləti ilə ədəbi əlaqələrimizin ən yüksək səviyyədə olduğundan istifadə edərək alimin həm ərəb, həm fars dilində olan əsərləri gənc alimlərimiz tərəfindən Azərbaycan dilinə tərcümə və tədqiq edilsin.

ƏDƏBIYYAT

1. Həmid Araslı. XVII–XVIII əsr Azərbaycan ədəbiyyat tarixi. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1956. 325 s.
2. «Bərdə və bərdəlilər». Bakı, «Nərgiz» nəşriyyatı, 2010, 448 s.
3. Xacə Seyid Raqim. Tarix –e raqemi. AMEA Şərqşünaslıq arxivi, inv. № 52, s.232.
4. Məhəmmədəli Tərbiət. Danışməndani- Azərbaycan. Bakı, 1987. s.180
5. Семенов А.А. Забытый среднеазиатский философ XVII в. и его «Трактат о сокрытом» // Известия Общества для изучения Таджикистана и иранских народностей за его пределами. Т. 1. Ташкент, 1928, с. 138.
6. https://www.pa.edu.az/library/7/44/297_felsefe_m_N4azerbaycanda_felsefi_fikrin_inkishafi__eyani.pdf
7. http://mesiha.blogspot.com/2019/02/yusif-qarabagi-v-onun-yeddi-bag-sri.html

УДК 37

*В.Дж.Гусейнова*
*Гянджинское Отделение НАНА*

## ЮСИФ КАРАБАХИ - СРЕДНЕВЕКОВЫЙ КАРАБАХСКИЙ ПОЭТ, ЖИВШИЙ И ТВОРИВШИЙ В УЗБЕКИСТАНЕ

*РЕЗЮМЕ*

*Ключевые слова:* средневековые ученые, Юсуф Карабаги, «Книга семи райских садов», средняя Азия, город Бухара

В статье представлена обширная информация о средневековом Карабахском ученом и поэте Юсифе Магомеджан оглы Карабаги, известном в области философии, логики и поэзии. В связи с общественно-политической ситуацией на Родине он вместе со своим учителем Хабибуллой Мирзаджаном Ширази вынужден был эмигрировать в города Средней Азии. В Узбекистане он жил сначала в Самарканде, а затем в Бухаре, где написал оригинальные произведения.

В статье представлены мысли его современника Хаджи Сеида Шарифа Рагима, исследования азербайджанских ученых М.Тарбията, А.А.Аминзаде, российского востоковеда А.А.Семенова, где широко анализируются научная и творческая деятельность Юсуфа Карабаги.

UDC 37

*V.J.Guseinova*
*Ganja Branch of ANAS*

## YUSIF KARABAKH - MEDIEVAL KARABAKH POET WHO LIVED AND WORKED IN UZBEKISTAN

*SUMMARY*

*Key words:* medieval scientists, Yusuf Karabaghi, “The Book of the Seven Gardens of Eden”, Central Asia, the city of Bukhara

The article provides extensive information about the medieval Karabakh scientist and poet Yusif Magomejan oglu Karabaghi, known in the field of philosophy, logic and poetry.

Due to the socio-political situation in his homeland, he and his teacher Habibullah Mirzajan Shirazi were forced to emigrate to the cities of Central Asia. In Uzbekistan, he lived first in Samarkand and then in Bukhara, where he wrote original works.

The article presents the thoughts of his contemporary Haji Seyid Sharif Rahim, the research of Azerbaijani scientists Muhammadali Tarbiyat, A.A.Aminzade, Russian orientalist A.A.Semenov, where the scientific and creative activities of Yusuf Karabaghi are widely analyzed.

***Daxil oldu: 12.03.2024-cü il***